# Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 2019-cu ildə fəaliyyəti haqqında hesabat

❒ ***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ölkədə fikir plüralizminin, söz və məlumat azadlığının inkişaf etdirilməsi, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsi, onların iqtisadi müstəqilliyinin gücləndirilməsi sahəsində həyata keçirilən dövlət siyasətinə müvafiq olaraq 2019-cu ildə də öz işini “Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası”na və Nizamnaməsinə uyğun qurmuşdur.***

Ötən il Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş vermiş hadisələr diqqət mərkəzində saxlanılmış, Fondun maliyyə dəstəyi göstərdiyi kütləvi informasiya vasitələri Konsepsiyada nəzərdə tutulmuş istiqamətlər üzrə həyata keçirilmiş tədbirləri geniş işıqlandırmışlar. Fond dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitini qanunauyğun şəkildə Konsepsiyada nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsinə sərf etmişdir.

Fond Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 yanvar 2019-cu il tarixli “2019-cu ilin “Nəsimi ili” elan edilməsi haqqında” sərəncamından irəli gələn vəzifələri diqqət mərkəzində saxlamış və Tədbirlər Planına daxil etmişdir. İmadəddin Nəsiminin 650 illiyi münasibətilə Mədəniyyət Nazirliyi ilə birgə təşkil edilmiş fərdi jurnalist yazıları müsabiqəsi dahi şairin poetik irsinin təbliği baxımından əhəmiyyətli olmuşdur.

2019-cu ildə Fondun yaranmasının 10-cu ildönümü tamam olmuşdur. Bu münasibətlə yubiley tədbiri təşkil edilmiş, eyni zamanda Fondun fəaliyyətini əks etdirən qısametrajlı film və fotoalbom hazırlanmışdır.

Fond 2019-cu ildə ölkədə fikir, söz və məlumat azadlıqlarının genişləndirilməsi, mətbuatın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində tədbirləri davam etdirmişdir. İl ərzində gündəlik, günaşırı və həftəlik nəşr olunan 25 ictimai-siyasi qəzetin təqdim etdiyi layihə təklifləri Fondun tələblərinə cavab verdiyi üçün onlara maliyyə vəsaiti ayrılmışdır. Həmin qəzetlərdə “Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası”nda nəzərdə tutulmuş 19 istiqamət üzrə 4000 səhifədən çox yazı dərc edilmiş, eyni zamanda, həmin qəzetlərin internet səhifələrində yerləşdirilmişdir.

Fond dövlət və cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində kütləvi informasiya vasitələrinin potensialından səmərəli istifadə edilməsi, jurnalistlərin peşəkarlığının artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Novruz bayramı, Azərbaycan Milli Mətbuatının yaranmasının 144-cü ildönümü, eləcə də 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə fərdi jurnalist yazıları müsabiqələri təşkil etmişdir.

Fond 2019-cu ildə Mədəniyyət Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (2 dəfə), “Azərenerji” ASC və Dövlət Statistika Komitəsi ilə birgə 5 yazı müsabiqəsi keçirmişdir. Ümumilikdə, ötən il keçirilmiş 8 müsabiqədə 596 nəfər iştirak etmiş, onlardan 403 nəfəri qalib olaraq mükafatlandırılmışlar.

Fondun Müşahidə Şurasının qərarı ilə ötən il fərdi jurnalist yazıları müsabiqələrində I yerə layiq görülmüş jurnalistlərin yazıları toplanaraq “Sözün zirvəsində” adlı kitabın V cildi nəşr edilmişdir.

“Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın 4.16-cı bəndinə müvafiq olaraq “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun izahı ilə bağlı maarifləndirmə tədbirləri davam etdirilmişdir. Bununla əlaqədar qəzetlərdə informasiya əldə etmək haqqında qanunvericiliyin izahına, fikir, söz və məlumat azadlıqlarının, plüralizmin inkişafına xidmət edən layihələrin maliyyələşdirilməsi davam etdirilmişdir. İl ərzində maliyyə vəsaiti ayrılmış qəzetlərdə bu mövzuda 200 səhifəyədək yazı dərc edilmişdir.

“Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası”na müvafiq olaraq, Fond ayrı-ayrı dövlət qurumları və KİV-lər arasında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində tədbirləri davam etdirmişdir.

Fondun maliyyə dəstəyi ilə “Azərbaycan mətbuat məkanında ədəbi dilin qorunması”, “Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması” və “Jurnalist peşəkarlığının artırılması” mövzusunda layihələr həyata keçirilmişdir. Layihələr 6 ay müddətində icra edilmiş, aparılmış monitorinqlər zamanı Azərbaycanda mətbuat və teleradio məkanında dil problemləri araşdırılmış, onun tənzimlənməsi yolları müzakirə edilmiş, müvafiq təkliflər verilmişdir.

Fond 2019-cu ildə Azərbaycan Mətbuat Şurasının “Ahıl jurnalistlərə qayğı: keçmişimizə ehtiram, gələcək üçün təcrübə qaynağımızdır” mövzusunda layihəsinin maliyyələşdirilməsi üçün vəsait ayırmışdır.

Ötən il Fondun beynəlxalq əlaqələri genişlənmişdir. Azərbaycanda fikir, söz və məlumat azadlıqlarının təmin edilməsi sahəsində qazanılmış nailiyyətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, inkişaf etmiş ölkələrin bu sahədəki təcrübəsinin öyrənilməsi və tətbiqi məsələləri diqqət mərkəzində olmuşdur. Fondun rəhbərliyi il ərzində müxtəlif beynəlxalq təşkilatların nümayəndələri və xarici jurnalistlərlə görüşmüş, onlara ölkəmizdə mətbuatın inkişafı istiqamətində həyata keçirilən tədbirlər haqqında geniş məlumat vermişdir.

Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə ötən ilin iyun ayında aparıcı media qurumlarının rəhbərlərindən ibarət nümayəndə heyətinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə işgüzar səfəri təşkil edilmişdir. Səfərdə məqsəd Rusiya ilə Azərbaycan mediası arasında qarşılıqlı faydalı əməkdaşlığı və təcrübə mübadiləsini genişləndirmək olmuşdur. Moskva səfəri çərçivəsində media rəhbərləri Rusiya Federasiyasının Xarici İşlər Nazirliyində, Azərbaycanın Rusiyadakı səfirliyində görüşlər keçirmiş, habelə “İtar-TASS” İnformasiya Agentliyinin, “Vestnik Kafkaza” Rusiya Federal Beynəlxalq Analitik İnformasiya Agentliyinin, Ümumrusiya Dövlət Teleradio Şirkətinin, “Ria-Novosti” İnformasiya Agentliyinin, “Komsomolskaya pravda” qəzetinin və Rusiya Jurnalistlər Birliyinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Hesabat dövründə kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsi, redaksiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi və səmərəli fəaliyyətinə zəruri şəraitin yaradılması, jurnalistlərin peşəkarlığının yüksəldilməsi, habelə KİV-lərin dövlət və cəmiyyət üçün əhəmiyyətli problemlərin həllinə cəlb edilməsi məqsədilə redaksiyalara metodiki, texniki-təşkilati, konsultativ və maliyyə dəstəyi göstərilmişdir.

Metodiki dəstək çərçivəsində redaksiyaların və jurnalistlərin layihə sənədlərinin və hesabatlarının hazırlanmasına, layihələrin icrasına kömək göstərilmişdir. Həmçinin, KİV-lər və jurnalistlər arasında məlumatlandırma işi aparılmış, mətbuat və televiziyada Fondun fəaliyyəti, həyata keçirdiyi tədbirlər haqqında 200-dən çox material verilmişdir.

Fondun rəhbərliyinin ayrı-ayrı dövlət orqanları və müxtəlif təşkilatların rəhbərləri ilə görüşləri təşkil edilmişdir. Fond jurnalist təşkilatları, QHT-lər və dövlət qurumları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərmiş, birgə tədbirlər keçirmişdir.

Fondun rəsmi saytının təkmilləşdirilmiş versiyası ötən ilin aprel ayında istifadəyə verilmiş, onun proqram təminatı, dizaynı və müvafiq bölmələrinin məzmunu yenilənmişdir. Bundan əlavə, saytın “youtube” və “tvitter” sosial şəbəkələrinə inteqrasiyası təmin edilmiş, “facebook” sosial şəbəkəsindəki rəsmi səhifəsinin informasiya təminatı təkmilləşdirilmişdir.

Ötən il “www.kivdf.gov.az” saytında Fondun fəaliyyəti ilə bağlı informasiyalar ardıcıl şəkildə yayımlanmış, ölkə ictimaiyyətinin, jurnalistlərin və beynəlxalq təşkilatların nümayəndələrinin diqqətini Fondun fəaliyyətinə cəlb etmək üçün xüsusi hazırlanmış bannerlərdən istifadə edilmişdir.

Konsultativ dəstək çərçivəsində KİV-lərin və jurnalistlərin fəaliyyətinin mövcud qanunvericiliyə uyğunlaşdırılması, mətbuatda etik dəyərlərin, insan hüquqlarının qorunması məsələləri diqqət mərkəzində olmuş, bu məqsədlə tədbirlər təşkil edilmişdir. Redaksiyaların fəaliyyətində şəffaflığın təmin edilməsi, maliyyə-mühasibat uçotunun düzgün qurulması, KİV-lərin fəaliyyətinin iqtisadi səmərəliliyinin artırılması üçün layihə koordinatorlarına və mühasiblərə zəruri kömək göstərilmişdir.

Təşkilati-texniki dəstək çərçivəsində KİV-lərin səmərəli fəaliyyətinə zəruri təşkilati-texniki dəstəyin təmin edilməsi, onlar üçün müvafiq şəraitin yaradılması məsələləri diqqət mərkəzində olmuşdur. Fond tərəfindən ayrılmış maliyyə yardımı hesabına ayrı-ayrı qəzetlər maddi-texniki bazalarını möhkəmləndirmişlər.

Fondun fəaliyyəti ilə maraqlanan şəxslərə Fondun əməkdaşları tərəfindən ətraflı məlumatlar verilmişdir. Daxil olmuş ərizə və şikayətlərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada və vaxtda baxılmışdır.

2019-cu ilin dövlət büdcəsindən Fonda 4083953 manat məbləğində vəsait ayrılmışdır. Həmin vəsaitin 2659431 manatı KİV layihələrinin maliyyələşdirilməsinə, 162775,37 manatı işçilərə əməkhaqqı və mükafatların verilməsinə, 35634,51 manatı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna ödənişlərə (22%), 809,88 manatı işsizlikdən sığorta ödənişi (0,5%) xərclərinə, 122700 manatı fərdi jurnalist yazıları müsabiqəsi qaliblərinin mükafatlandırılmasına xərclənmişdir. Fond digər tədbirlərin, layihələrin maliyyələşdirilməsinə və sair xərclərə 382883,83 manat vəsait xərcləmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Bir sıra kütləvi informasiya nəşrlərinin dövlət büdcəsindən maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsi haqqında” 24 iyun 2009-cu il tarixli, 114 saylı Fərmanının 1.1-ci bəndinə əsasən, “Azərbaycan”, “Göyərçin”, “Günəş”, “Qobustan”, “Literaturnıy Azerbaydjan”, “Ulduz” jurnallarına və “Ədəbiyyat”, “Savalan” qəzet redaksiyalarına 709262 manat ayrılmış, həmin vəsaitin 708672,84 manatı xərclənmişdir.

Fonda ayrılmış 4083953 manat vəsaitin 4072907,43 manatı istifadə olunmuş, xərclənməmiş 11045,57 manat dövlət büdcəsinə məxaric edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 iyul 2019-cu il tarixli “Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı ayrılması haqqında” Sərəncamına əsasən, qəzetlərə birdəfəlik maliyyə yardımının göstərilməsi üçün Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 milyon manat ayrılmışdır.

Fondun Müşahidə Şurasının 25 dekabr 2019-cu il tarixli iclasının qərarı ilə respublikada uzun illər ərzində sabit fəaliyyət göstərərək ictimaiyyət arasında nüfuz qazanmış, yüksək tirajı və dövriyyəsi olan, Azərbaycan qanunvericiliyinə və “Jurnalistlərin Peşə Davranışı Qaydaları”na ardıcıl şəkildə riayət edən 20 gündəlik ictimai-siyasi qəzetə birdəfəlik maliyyə yardımı ayrılmışdır. Həmin vəsaitin 674.000 manatı qəzetlərə maliyyə yardımının göstərilməsi məqsədilə xərclənmişdir. Fondun Müşahidə Şurasının 25 dekabr 2019-cu il tarixli iclasının qərarı ilə qalan 326.000 manat maliyyə vəsaiti hesabına 20 gündəlik və günaşırı ictimai-siyasi qəzetə birdəfəlik maliyyə yardımı ayrılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 iyul 2017-ci il tarixli, 3116 nömrəli “Kütləvi informasiya vasitələri əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” sərəncamına əsasən, 2019-cu ildə Səbail rayonu, Bayıl qəsəbəsi, 20-ci sahə ərazisində 17 mərtəbəli, 3 girişli və 255 mənzildən ibarət yaşayış binasının tikintisi davam etdirilmişdir.

Ötən il Fondun Müşahidə Şurasının 14 iclası keçirilmişdir. İclaslarda Fondun işinin təşkili, müsabiqələrin keçirilməsi və nəticələrinin təsdiqi, layihələrin qiymətləndirilməsi üzrə ekspertlərin müəyyənləşdirilməsi, ayrı-ayrı tədbirlərin təşkili və digər məsələlər müzakirə edilmiş, müvafiq qərarlar qəbul olunmuşdur.

Hesabat Fondun Müşahidə Şurasının 03 fevral 2020-ci il tarixli iclasında geniş müzakirə olunmuş, müsbət qiymətləndirilərək qənaətbəxş hesab edilmişdir. İclasda həmçinin, Fondun 2020-ci il üçün Tədbirlər Planı və layihələrin qiymətləndirilməsini həyata keçirəcək ekspertlərin tərkibi təsdiq edilmişdir.

Xalq qəzeti 2020.- 4 fevral.- S.10.